Bakı Araşdırmalar İnstitutu

# 2023-cü İLİN MAKROİQTİSADİ ANALİZİ VƏ NƏTİCƏLƏRİ

*(yanvar-sentyabr ayı üzrə)*

## İQTİSADİ BÜLLETEN

BAKI – 2023

# MÜNDƏRICAT


**Giriş** 3

**1. 2023-cü il dövlət büdcəsinin gəlir və xərcləri** 4

Makroiqtisdi vəziyyət: əsas meyllər 4

İcmal büdcənin gəlirləri və xərcləri 7

Dövlət büdcəsinin gəlir və xərclərinin əsas meylləri 8

Dövlət Neft Fondunun gəlir və xərcləri 11

**2. Monetar siyasət: inflyasiya üçün sərtləşmə "peyvəndi"** 12

**3. Xarici iqtisadi əlaqələrin analizi: əsas meyllər** 20

Xarici ticarət əlaqələrinin təhlili 20

Tədiyə balansı göstəricilərinin analizi 22

# Giriş

Artıq 2023-cü ilin son günləridir. İl başa çatsa da, ilin yekunu üzrə iqtisadi məlumatların açıqlanması bir neçə aydan sonra baş verəcək. Bu baxımdan, Sizə təqdim edilən bülletendə 2023-cü ilin makroiqtisadi təhlili yanvar-sentyabr aylarının göstəricilərinə əsaslanıb.

Bülleten 3 bölmədən ibarətdir.

*Birinci bölmədə* 2023-cü il dövlət büdcəsinin gəlir və xərcləri təhlil edilir. Bu bölmədə makroiqtisdi vəziyyətdə müşahidə edilən əsas meyllərə, icmal büdcə və onun tərkibi olan dövət büdcəsi və büdcədənkənar fondların gəlir və xərclərində baş vermiş dəyişikliklərə nəzər salınır.

*İkinci bölmə* hökumətin inflyasiyaya qarşı mübarizə çərçivəsinə həyata keçirtdiyi monetar siyasətinə həsr olunub. Dünya qiymət artımlarının fonunda inflyasiyanın ölkəmizə idxalı mal və xidmətlərin bahalaşmasını şərtləndirib və Mərkəzi Bank son iki ildə əsas diqqəti inflyasiya ilə mübarizə tədbirlərinə yönəldib və əsas addım olaraq pul-kredit siyasəti sərtləşdirilib. Bu məqsədlə faiz parametrləri mərhələli şəkildə artırılıb, pul siyasəti alətlərinin yeni konfiqurasiyada tətbiqinə başlanıb, məcburi ehtiyat normalarının artırılması və differensiyalaşdırılması baş verib. Eyni zamanda, Mərkəzi Bank ilk dəfə olaraq öz səlahiyyətlərinin bir qismini banklara ötürülməsi siyasətinə başlayıb. Bu tədbirlərin bank sisteminə təsirlərinin ilkin nəticələrinə nəzər salınır.

*Üçüncü bölmədə* xarici iqtisadi əlaqələrin analizi və bu sektorda müşahidə edilən əsas meyllər əksini tapır. Burada əsas diqqət beynəlxalq bazarlarda enerji daşıyıcılarının qiymətinin ucuzlaşması səbəbindən ölkəyə neft-qaz ixracından daxilolmalarda ciddi azalmanın baş verməsinin, ölkədən ən müxtəlif kanallarla xalis kapital çıxışının azalmasının tədiyə balansına təsiri qiymətləndirilib.

# 2023-cü il dövlət büdcəsinin gəlir və xərcləri

### Makroiqtisdi vəziyyət: əsas meyllər

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində ölkədə 90 milyard 812.2 milyon manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilib: cari ilin 9 ayında ötən ilin eyni dövrü ilə müqayisədə real artım tempi 0.8% olub. Əhalinin hər nəfərinə düşən ÜDM-in miqdarında, ötən ilin eyni dövrü ilə müqayisədə, cəmi 0.2%-lik real artım qeydə alınıb.

Müqayisə üçün qeyd edək ki, 2022-ci ilin yanvar-sentyabr ayları ərzində ölkədə yaradılan ÜDM-in miqdarı 98 milyard 193.8 milyon manat olmuş, əvvəlki ilin 9 ayı ilə müqayisədə ÜDM-in real artım tempi 5.6% olmuşdu[1]. 2023-cü və 2022-ci illərin yanvar-sentyabr ayları dövründə ÜDM deflyatoru, uyğun olaraq, 91.7% və 145.4% təşkil edib[2], yəni əvvəlki illə müqayisədə cari il ÜDM-in tərkibi üzrə ümumi qiymət artımında azalma baş vermişdir (cədvəl 1).

**Cədvəl 1**

**2023-ci və 2022-ci illərin yanvar-sentyabr ayları üzrə makroiqtisadi göstəricilərin müqayisəsi**

| | **2023-ci ilin yanvar-sentyabr ayları üzrə** | **2022-ci ilin yanvar-sentyabr ayları üzrə** |
|---|---|---|
| ÜDM-in miqdarı, milyon manat | 90812.5 | 98193.8 |
| Real artım tempi (əvvəlki ilin eyni dövrü ilə müqayisədə), %-lə | 100.8 | 1005.6 |
| ÜDM deflyatoru, % | 91.7 | 145.4 |
| Neft-qaz sektoru üzrə ÜDM, milyon manat | 34647.5 | 47868.5 |
| Neft-qaz sektoru üzrə ÜDM-in real artım tempi (əvvəlki ilin eyni dövrü ilə müqayisədə), %-lə | 98.5 | 97.5 |
| Qeyri -neft-qaz sektoru üzrə ÜDM, milyon manat | 56165.0 | 50325.3 |
| Qeyri- neft-qaz sektoru üzrə ÜDM-in real artım tempi (əvvəlki ilin eyni dövrü ilə müqayisədə), %-lə | 103.0 | 110.1 |

**(Cədvəl DSK və Mərkəzi Bankın məlumatları əsasında hazırlanıb)**

2023-cü ilin yanvar-sentyabr ayları ərzində ölkədə yaradılan ÜDM-in 38.2%-i, yaxud 34 milyard 647.5 milyon manatı neft-qaz sektorunda, 61.8%-i (yaxud 56 milyard 165.0 milyon manatı) isə qeyri- neft-qaz sektoru sahələrində istehsal edilmişdir. DSK-nın məlumatına görə, 2022-ci ilin yanvar-sentyabrı ilə müqayisədə 2023-cü ilin eyni dövründə neft-qaz sektorunda fiziki baxımdan məhsul istehsalında 1.5% azalma qeydə alınsa da, dəyər ifadəsində (yəni nominal ÜDM-də) azalma

[1] https://www.stat.gov.az/news/source/2022_09ay.zip
[2] https://uploads.cbar.az/assets/09b4f707806fa2f47d4af81b8.xlsx

27.6% təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə bu ilin 9 ayında dünya bazarlarında xam neft və təbii qazın qiymətlərində olan azalma ilə bağlıdır.

Neft-qaz sektorundan fərqli olaraq, qeyri -neft-qaz sektorunda ÜDM-in nominal artımı 111.6% olduğu halda, real artım 103.0% təşkil edib. Hesablamalar əsasında deyə bilərik ki, qeyri-neft-qaz sektorunda cari ilin 9 ayında ÜDM deflyatoru 108.4% olmuşdur, yəni bu sektorda ümumi qiymət artımı prosesi davam etməkdədir. Cədvəlin məlumatlarından göründüyü kimi, cari ilin 9 ayında qeyri-neft sektorunda real artım tempi ötən ilin eyni dövrü ilə müqayisədə zəifləmiş və 7.1% bəndi az olmuşdur.

2023-cü ilin 9 ayındakı ÜDM-in 34.7%-i (yaxud 31 milyard 550.0 milyon manatı mədənçıxarma sənayesində, 9.5%-i (8 milyard 622.9 milyon manatı) ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 6.4%-i (5 milyard 800.6 milyon manatı) kənd təsərrüfatında, 6.0%-i (5 milyard 469.1 milyon manatı) nəqliyyat və anbar təsərrüfatında, 5.6%-i (5 milyard 095.6 milyon manatı) emal sənayesi sahələrində, 5.0%-i (4.5 milyard manatı) tikintidə, 2.3%-i (2.1 milyard manatı) turistlərin yerləşdirilməsi və ictimai iaşədə, 1.7%-i (1.5 milyard manatı) informasiya və rabitədə, 18.0%-i (16.4 milyard manatı) isə digər sahələrdə yaradılmışdır. Məhsula və idxala xalis vergilər 8.6 milyard manat olmaqla ÜDM-in 9.5%-ini təşkil etmişdir (*diaqram 1*).




**Diaqram 1. 2023-cü ilin yanvar-sentyabr ayları dövründə ÜDM-in strukturu, ümumi yekuna görə xüsusi çəkisi, %-lə**

2023-cü ilin yanvar-sentyabr ayları dövründə 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə mədənçıxarma sənayesində real artım tempi 0.7 faiz bəndi azalaraq -1.8%-dən -2.5%-ə düşüb. Eyni dövrlərin müqayisəsi zamanı pandemiyadan sonrakı dövrdə canlanmanın müşahidə olunduğu tursitlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda bu il artım templərində olan kəskin azalma diqqəti cəlb edir: burada ötən ilin 9 ayında yaradılan ÜDM-in artım tempi 74.0% olduğu halda, bu ilin 9 ayında 26.0% səviyyəsinə düşüb, yəni 48 faiz bəndi azalıb. Deməli, 2021-ci ildə pandemiya səbəbindən qapanmış sərhədlərin qismən açılması ötən il bu sektorda ciddi artım yaratsa da, ölkənin quru sərhədlərinin bağlı qalması, habelə ötən ilki yüksək qiymət artımları bu ilin 9 ayında turist axınlarında və ictimai iaşə sektorunda artımı məhdudlaşdıran amillər rolunda çıxış edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə real artım tempində kəskin azalmanın qeydə alındığı digər sahə nəqliyyat və anbar təsərrüfatıdır: burada yaradılan ÜDM-in real artım tempi 2022-ci ilin 9 ayında 27.2% olduğu halda, bu ilin eyni dövründə -11.8% olub, başqa sözlə, 39.0 faiz bəndi azalma baş verib.

DSK-nın məlumatına görə, 2023-ci ilin 9 ayı ərzində ölkənin emal sənayesində yaradılan ÜDM ötən ilin eyni dövrü ilə müqayisədə real ölçüdə 9.4% artıb. Bu, ötən ilki eyni dövrün artımı ilə müqayisədə 5.6 faiz bəndi çoxdur. Qeyd edək ki, ölkənin 2023-cü ilin 9 ayındakı ÜDM-inin cəmi 5.6%-i emal sənayesində yaradılıb ki, bunun da təqribən 1/3-i neft emalı və kimya sənayesinin payına düşür.

Ötən ilin 9 ayı ilə müqayisədə bu ilin 9 ayında tikinti sektorunda yaradılan ÜDM-in artım tempində də, kiçik də olsa, 0.8 faiz bəndlik azalma müşahidə edilir.

DSK-nın məlumatına əsasən, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala 12 milyard 728.9 milyan manat vəsait yönəldilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 21.3% çoxdur. Ümumi kapital qoyuluşunun 34.5%-i (4.4 milyard manatı) neft-qaz sektoruna, 65.5%-i (8.3 milyard manatı) isə qeyri-neft-qaz sektoruna yatırılıb. Ötən ilin eyni dövrü ilə müqayisədə neft-qaz sektorunda əsas kapitala yönəldilən investisiyanın miqdarı 18.1%, qeyri- neft-qaz sektorunda isə 23.2% artıb.

Ölkə iqtisadiyyatına 9 ayda həyata keçirilən kapital qoyuluşunun 77.3%-i, yaxud 9.8 milyard manatı daxili mənbələr, 22.7%-i, yaxud 2.9 milyard manatı isə xarici mənbələrdən cəlb edilib. Xarici mənbələrdən cəlb edilən vəsaitin 2.4 milyard manatı, yaxud 83.3%-i neft-qaz sektorunda reallaşdırılıb.

Daxili mənbələrdən əsas kapitala cəlb edilmiş 9.8 milyard manatın 2.0 milyardı (20.2%-i) neft-qaz sektoruna, 7.8 milyardı (79.8%-i) qeyri neft-qaz sektoru sahələrinə yönəldilib. Daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin ümumi məbləğinin yarıdan çoxu – 52.4%-i, yaxud 5.2 milyard manatı dövlət büdcəsinin hesabına olub. Bu vəsaitlər əsasən işğaldan azad edilmiş ərazilərin bərpası və dirçəldilməsi layihələrinə yönəldilmişdir. Dövlət büdcəsi ilə yanaşı bu ilin 9 ayında müəssisə və təşkilatlar tərəfindən əsas kapitalın maliyyələşdirilməsinə təqribən 3 milyard manat (bunun təqribən 2.0 milyardı neft-qaz sektoruna), əhalinin şəxsi vəsaitləri hesabına isə 793.6 milyon manat vəsait yönəldilib. Əhalinin şəxsi vəsaitlərindən əsas kapitala yönəldilən məbləğin ildən-ilə azalması tendensiyası müşahidə olunur.

DSK-nın məlumatları əsasında apardığımız hesablamalara əsasən deyə bilərik ki, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində qeyri-neft-qaz sektorunda əsas kapitala yönəldilən 8.3 milyard manatlıq vəsaitin təqibən 75 faizi iki sektorun payına düşüb: ümumi məbləğin 43.2%-i, yaxud 3.6 milyard manatı nəqliyyat, 31.3%-i, yaxud 2.6 milyard manatı isə tikinti sektorunda reallaşdırılıb.

2023-cü ilin 9 ayında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində əsas kapitala qoyulan vəsaitin məbləği 445.1 milyon manat olub ki, bu da qeyri neft-qaz sektoruna yönəldilən ümumi vəsaitin 5.3%-ni təşkil edib. Bu dövrdə ölkənin qeyri-neft-qaz emal sənayesində kapital qoyuluşunun məbləği 211.6 milyon manat olub ki, bu da qeyri-neft-qaz sektoru üzrə ümumi kapital qoyuluşunun 2.5%-i qədərdir (*diaqram 2*).




**Diaqram 2. 2023-cü ilin yanvar-sentyabr ayları ərzində qeyri-neft-qaz sektorunda əsas kapitala yönəldilən vəsaitlərin sahə quruluşu, ümumi yekunda xüsusi çəkisi, faizlə**

DSK-nın məlumatına əsasən, 2023-cü ilin yanvar-sentyabr ayları dövründə əvvəlki ilin eyni dövrü ilə müqayisədə əsas kaptala yönəldilən vəsaitin məbləği qeyri-neft-qaz sənayesində 27.6%, emal sənayesində 30.3%, qeyri-neft-qaz emal sənayesində 52.8% azalmış, maliyyə və sığorta fəaliyyərində 2 dəfə, kənd təsərrüfatında 70.8%, rabitədə 55.0%, tikintidə 33.0% və nəqıiyyatda 31.4% artmışdır.

## İcmal büdcənin gəlirləri və xərcləri

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin məlumatına[3] əsasən, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində ölkənin icmal büdcəsinin gəlirləri 36 milyard 889.4 milyon manat, icmal büdcənin xərcləri isə 25 milyard 898.4 milyard manat, icmal büdcənin profisiti isə 10 milyard 991.0 milyon manat olub. 2022-ci ilin 9 ayı ilə müqayisədə icmal büdcənin gəlirləri 7 milyard 169.6 milyon manat, yaxud 24,1%, xərcləri 3 milyard 328.8 milyon manat, yaxud 14.7%, profisiti isə 3 milyard 840.8 milyon manat, yaxud 53.7% artmışdır. 2023-cü ilin 9 ayında Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan icmal büdcənin kəsiri 3 milyard 877.6 milyon manat olub ki, bu da əvvəlki ilin eyni dövrü ilə (4 milyard 209.8 milyon manat ) müqayisədə 332.2 milyon manat, yaxud 7.9% azdır.

Bunu da qeyd etməliyik ki, əvvəlki illərdən fərqli olaraq, Maliyyə Nazirliyi İcbari Tibbi Sığorta Fondunun büdcə gəlirlərini və xərclərini də icmal büdcənin gəlir və xərclərində nəzərə almışdır.

2023-cü ilin 9 ayında icmal büdcənin gəlir və xərclərinin tərkibi aşağıdakı cədvəldə əksini tapıb (Cədvəl 2).

[3] https://www.maliyye.gov.az/static-page/periodic-reports

**Cədvəl 2**

**2023-cü ilin yanvar-sentyabr ayları dövründə icmal büdcənin gəlir və xərclərinin tərkibi,**

**(milyon manatla)**

| | **Gəlirlər** | **Xərclər** | **Profisit (+) yaxud deficit (-)** |
|---|---|---|---|
| **İcmal büdcə, cəmi** | 36889.4 | 25898.40 | 10991.0 |
| Dövlət büdcəsi | 22077.0 | 23214.50 | -1137.5 |
| Naxçıvan Muxtar Respublikasının büdcəsi | 383.5 | 354.6 | 28.9 |
| Dövlət Sosial Müdafiə Fondunun büdcəsi | 4875.0 | 4535.40 | 339.6 |
| İşsizlikdən sığorta fondunun büdcəsi | 144.2 | 145.2 | -1.0 |
| İcbari Tibbi Sığorta Fondunun büdcəsi | 1681.8 | 1222.50 | 459.3 |
| Dövlət Neft Fondunun büdcəsi | 14868.6 | 3566.90 | 11301.7 |
| **Büdcələrarası transfertlər** | (7140.7) | (7140.7) | |
| **Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan icmal büdcənin kəsiri** | **-3,877.6** | | |

(Mənbə: Maliyyə Nazirliyi, https://www.maliyye.gov.az/static-page/periodic-reports )

2023-cü ilin yanvar-sentyabr ayları ərzində icmal büdcənin daxilində 7 milyard 140.7 milyon manatlıq büdcələrarası transfertlər olub. Bunun 3 milyard 550.0 milyon manatı Dövlət Neft Fondundan dövlət büdcəsinə, qalan 3 milyard 590.7 milyon manatı isə dövlət büdcəsindən digər büdcələrə edilən transfertlərdir. Bu müddət ərzində dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə 2 milyard 236.0 milyon manat (o cümlədən, Fondun büdcəsinin balanslaşdırılması üçün 1.1 milyard manat və sosial sığorta haqqları üzrə 1135.2 milyon manat), İcbari Tibbi Sığorta Fondunun büdcəsinə 1 milyard 082.8 milyon manat (o cümlədən, əhalinin ümumi icbari sığortasına 980.3 milyon manat və büdcə təşkilatlarında çalışanların icbari sığortası haqqı kimi 102.5 milyon manat), Naxçıvan Muxtar Respublikasının büdcəsinə 255.0 milyon manat və İşsizlikdən sığorta fondunun büdcəsinə 16.9 milyon manat transfert edilmişdir.

## Dövlət büdcəsinin gəlir və xərclərinin əsas meylləri

Maliyyə Nazirliyinin operativ məlumatına[4] əsasən, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində dövlət büdcəsinin gəlirləri 22 milyard 076.9 milyon manat, xərcləri 23 milyard 214.5 milyon manat, dövlət büdcəsinin kəsiri isə 1 milyard 137.6 milyon manat olub. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə dövlət büdcəsinin gəlirləri 324.5 milyon manat, yaxud 1.4% az, xərcləri isə 2 milyard 743.8 milyon manat, yaxud 13.4% çox olmuşdur.

Maliyyə Nazirliyinin məlumatına görə, bu ilin doqquz ayı ərzində dövlət büdcəsinin gəlirləri müvafiq dövr üzrə proqnozlaşdırılandan (25 milyard 248.9 milyon manat) 3 milyrd 172.0 milyon manat, yaxud 12.6% azdır. Büdcə daxilolmalarının proqnozdan az olması Dövlət Neft Fondundan cari

[4] https://www.maliyye.gov.az/uploads/static-pages/files/6529485aa5f7b.pdf

ilin doqquz ayı üzrə proqnozla nəzərdə tutulandan 2 milyard 992.0 milyon manat az köçürülməsi ilə izah edilir.

2023-cü ilin yanvar-sentyabr ayları ərzində dövlət büdcəsinin 9 aylıq gəlirləri üçün təsdiq edilmiş proqnozdan vergi daxilolmaları üzrə 723.5 milyon manat və ya 6.0%, gömrük rüsumları və idxala görə vergi daxilolmaları üzrə 313.8 milyon manat və ya 7.1%, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar üzrə 3.6 milyon manat və ya 17.3% çox, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətləri üzrə 1.6 milyon manat və ya 0.3% az vəsait daxil olmuşdur.

Maliyyə Nazirliyi bildirir ki, 2023-cü ilin yanvar-sentyabr ayları üzrə dövlət büdcəsinin gəlirləri 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları üzrə 2 milyard 359.3 milyon manat və ya 22.6%, gömrük rüsumları və idxala vergi daxilolmaları üzrə 479.1 milyon manat və ya 11.3%, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar üzrə 1.6 milyon manat və ya 0.3%, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar üzrə 4.7 milyon manat və ya 23.9% çox olmuşdur.

***Dövlət büdcəsi gəlirlərinin quruluşu***. 2023-cü ilin 9 ayında dövlət büdcəsinin daxilolmalarının 12 milyard 810.7 milyon manatı yaxud 58.0%-i vergi daxilolmalarının, 4 milyard 706.6 milyon manatı, yaxud 21.3%-i gömrük rüsumları və idxala vergi daxilolmalarının, 3 milyard 550.0 milyon manatı, yaxud 16.1%-i Dövlət Neft Fondundan transfertin, 582.2 milyon manatı, yaxud 2.7%-i büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların, 24.4 milyon manat,ı yaxud 0.1%-i dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların və 403.0 milyon manatı, yaxud 1.8 faizi digər daxilolmaların hesabına formalaşıb (D*iaqram 3*).




**Diaqram 3. 2023-cü ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin gəlirlərinin strukturu, ümumi yekunda xüsusi çəkisi, faizlə**

2023-cü ilin yanvar-sentyabr ayları üzrə dövlət büdcəsinə daxil olan vəsaitin 40.6%-i, yaxud 8 milyard 946.1 milyon manatı neft-qaz sektoru üzrə daxilolmalardan ibarət olub. Bu, cari ilin 9 ayı üzrə  proqnozla müqayisədə 3 milyard 919.7 milyon manat, yaxud 30.5% az, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə isə 17.2%, yaxud 1 milyard 855.6 milyon manat azdır.

2023-cü ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin gəlirlərində neft-qaz sektoru üzrə daxilolmaların 39.7%-ini və ya 3 milyard 550.0 milyon manatını Dövlət Neft Fondundan transfert, qalan 60.3 faizini və ya 5 milyard 396.1 milyon manatını isə vergi daxilolmaları təşkil edir. Neft-qaz sektoru üzə vergi daxilolmalarının 3 milyard 377.9 milyon manatı, yaxud 62.6%-i Şahdəniz

qazkondensat yatağı üzrə mənfəət vergisi, 1 milyard 494.4 milyon manatı, yaxud 27.7%-i Dövlət Neft Şirkətinin (SOCAR) ödədiyi vergilər, 523.8 milyon manatı yaxud 9.7%-i isə *Azəri-Çıraq-Günəşli* HPBS üzrə mənfəət vergisinin payına düşüb.

2023-cü ilin 9 ayı üzrə dövlət büdcəsinin daxilolmalarının 59.5 faizi yaxud 13 milyard 130.8 milyon manatı qeyri-neft-qaz sektoru üzrə daxilolmalardan ibarətdir. Maliyyə Nazirliyi bildirir ki, bu həmin dövrə olan proqnozla müqayisədə 747.7 milyon manat və ya 6.0%, 2022-ci ilin müvafiq dövrünün faktiki icrası ilə müqayisədə isə 1 milyard 531.0 milyon manat, yaxud 13.2% çoxdur.

Qeyd edilən dövrdə dövlət büdcəsinin gəlirlərində qeyri-neft/qaz sektoru üzrə daxilolmaların 56.5%-i (7 milyard 414.6 milyon manatı) vergi daxilolmaları, 35.8%-i (4 milyard 706.6 milyon manatı) isə gömrük rüsumları və idxala vergi daxilolmaları olmuşdur.

Cari ilin yanvar-sentyabr aylaırnda dövlət büdcəsinin cəmi vergi gəlirləri 15 milyard 855.8 milyon manat olub. Bunun 6.7 milyard manatı (42.4%-i) hüquqi şəxslərin mənfəət vergisi, 6.1 milyardı (38.6%-i) əlavə dəyər vergisi, 1.2 milyardı (7.6%-i) fiziki şəxslərin gəlir vergisi, 1.1 milyardı (6.9%-i) aksizlər, qalan 4.5%-ni digər vergilər hesabına formalaşıb (diaqram 4).




**Diaqram 4. 2023-cü ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin vergi daxilolmalarının strukturu, ümumi yekunda xüsusi çəkisi, faizlə**

***Dövlət büdcəsinin xərcləri***. 2023-cü ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin xərcləri 23 milyard 214.5 milyon manat olub. Dövlət büdcəsi xərclərinin 14 milyard 118.4 milyon manatı, yaxud 60.8%-i cari xərclərə, 8 milyard 382.4 milyon manatı, yaxud 36.1%-i əsaslı xərclərə, 713.7 milyon manatı, yaxud 3.1%-i dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə sərf edilib.

2023-cü ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin funksional təsnifatına görə iqtisadi fəaliyyət xərcləri 6 milyard 431.5 milyon manat (27.7%-i), müdafiə və milli təhlükəsizlik xərcləri 3 milyard 468.9 milyon manat (14.9%-i), sosial müdafiə və sosial təminat xərcləri 3 milyard 214.1 milyon manat (13.8%-i), təhsil xərcləri 2 milyard 709.1 milyon manat (11.7%-i), ümumi dövlət xidmətləri xərcləri 2 milyard 486.3 milyon manat (10.7%-i), məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq bölməsi üzrə xərcləri 1 milyard 753.0 milyon manat (7.6%-i), səhiyyə xərcləri 1 milyard 214.0 milyon manat (5.2%-i), kənd təsərrüfatı xərcləri 676.9 milyon manat (2.9%-i), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri 305.3 milyon manat (1.3%-i), ətraf mühitin mühafizəsi xərcləri 202.4 milyon manat

(0.9%-i), mənzil və kommunal təsərrüfatı xərcləri 181.7 milyon manat (0.78-i), əsas bölmələrə aid edilməyən xidmətlər bölməsi üzrə xərcləri 571.3 milyon manat (2.5%-i) təşkil etmişdir.

Bu ilin 9 ayında işğaldan azad olunmuş ərazilərin bərpası, yenidən qurulması və dirçəldilməsi layihələrinin maliyyələşdirilməsinə dövlət büdcəsindən 3 milyard 741.0 milyon manat sərf edilmişdir ki, bu da ötən ilin eyni dövründəki uyğun xərclərlə müqayisədə 1 milyard 579.1 milyon manat, yaxud 1.7 dəfə çoxdur.

***Dövlət borcu və dövlət borcuna xidmət*.** Maliyyə Nazirliyinin məlumatına görə, 2023-cü il sentyabrın sonuna Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 17 milyard 203.3 milyon manat təşkil etmişdir ki, bu da 2023-cü il üzrə proqnozlaşdırılan ÜDM-in 14.4%-i qədərdir. Bu dövrdə xarici dövlət borcunun məbləği manat ifadəsində 11 milyard 109.5 milyon manat (6 milyard 535.0 milyon ABŞ dolları ekvivalenti) olmuşdur. Bu, müvafiq dövrə proqnozlaşdırılan ÜDM-in 9.3%-i qədərdir. Dövlət borcunun 6 milyard 093.8 milyon manatını (35.4%-ini) daxili dövlət borcu təşkil edir (proqnozlaşdırılan ÜDM-in 5.1%-i qədər).

2023-cü ilin yanvar-sentyabr aylarında dövlət borcuna xidmət edilməsi ilə bağlı xərclər 713.7 milyon manat olub. Bu xərclərin 591.9 milyon manatı xarici dövlət borcuna, 121.8 milyon manatı isə daxili dövlət borcuna xidmət xərclərinin payına düşüb.

## Dövlət Neft Fondunun gəlir və xərcləri

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) məlumatına[5] əsasən, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində ARDNF-nin büdcə gəlirləri 14 milyard 878.3 milyon manat, büdcə xərcləri isə 3 milyard 587.0 milyon manat olub. Ötən ilin eyni dövrü ilə müqayisədə Fondun büdcə gəlirləri 3.5 milyard manat çox, xərcləri isə 3.0 milyard manat az olmuşdur.

2023-cü ilin yanvar-sentyabr ayları ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 12 milyard 227.2 milyon manat olub ki, bunun 11 milyard 422.1 milyon manatı mənfəət neftinin və qazın satışından gəlirlərin, 800.7 milyon manatı bonus ödənişlərinin, 0.8 milyon manatı tranzit gəlirlərinin, 3.6 milyon manatı isə akrhesabı ödənişlərin hesabına əldə edilmişdir. 9 ay ərzində Fondun vəsaitinin idarə olunmasından 2 milyard 651.1 milyon manat gəlir olub.

Hesabat dövrü ərzində ARDNF-nin büdcəsindən 3 milyard 550.0 milyon manat dövlət büdcəsinə transfert edilmiş, 10.8 milyon manat *2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı*nın maliyyələşməsinə, 6.1 milyon manat *Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı*"nın maliyyələşməsinə yönəldilmişdir. Bu dövrdə ARDNF-nin idarə edilməsi ilə bağlı xərclər 20.1 milyon manat təşkil edib.

Fondun məlumatına əsasən, 2023-cü il sentyabr ayının 30-na ARDNF-nin aktivləri 55 milyard 524.0 milyon ABŞ dolları olub. 2023-cü ilin əvvəlinə (49 milyard 033.6 milyon ABŞ dolları) nisbətən Fondun valyuta aktivlərində 13%-lik artım baş verib.

[5] https://oilfund.az/fund/press-room/news-archive/1610

# 2. MONETAR SİYASƏT: inflyasiya üçün sərtləşmə "peyvəndi"

Son iki ildə Mərkəzi Bank növbəti il üçün pul siyasətinin əsas məqsədi olaraq inflyasiya ilə mübarizə amilini xüsusilə qabardır. *Azərbaycan Respublikası Mərkəzi Bankının 2023-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə Bəyanatı*nda qiymət sabitliyinin təmin olunmasını əsas hədəf kimi seçən Mərkəzi Bank pul siyasəti ilə bağlı qərarların illik inflyasiya göstəricilərinin dinamikasından və hədəf diapazonundan kənarlaşma səviyyəsindən asılı olacağını qeyd edir. Bəyanatda həmçinin yumşalma siyasəti siqnalı verilərək vurğulanır ki, illik inflyasiya göstəricilərinin və proqnozlarının hədəfə yaxınlaşması baş verərsə, ilk olaraq monetar şəraitin dəyişilməz saxlanılması, sonrakı mərhələdə isə onun yumşaldılması imkanları nəzərdən keçiriləcək.

Mərkəzi Bank hesab edir ki, xarici mühitlə bağlı yüksək qeyri-müəyyənliklər növbəti ilə inflyasiyanın proqnozlaşdırılmasını çətinləşdirir. 2023-cü ildə də dünya bazarında birja əmtəələrinin qiymətlərinin dinamikası, tərəfdaş ölkələrdə inflyasiya prosesləri və daşınma xərcləri ölkədəki inflyasiya proseslərinə təsir göstərəcək. Mərkəzi Bank ortamüddətli dövrdə inflyasiyanın tədricən hədəf diapazonuna doğru hərəkət edəcəyi proqnozlaşdırılsa da, inflyasiya təzyiqlərinin azalması prosesinin gözlənildiyindən daha uzun çəkməsini ehtimal edir.

2022-ci ildə qlobal mühit geosiyasi və geoiqtisadi gərginliyin yüksəlməsi, inflyasiya təzyiqinin güclənməsi, aparıcı ölkələrdə iqtisadi daralma və bir çox ölkələrdə monetar siyasətin sərtləşməsi ilə xarakterizə olunub. Yüksək inflyasiya təzyiqləri ilə üzləşən mərkəzi bankların monetar siyasətlərində sərtləşmə tendensiyası müşahidə edilməyə başladı. Dünya iqtisadiyyatının bir parçası olaraq Azərbaycanda da 2022-2023-cü illər pul-kredit siyasətinin sərtləşdirilməsi ilə yadda qaldı. Mərkəzi Bankın rəsmi açıqlamalarında qeyd edilir ki, Azərbaycanda inflyasiya təzyiqləri qalmaqdadır və faktiki inflyasiya əsas ticarət tərəfdaşlarındakı inflyasiya proseslərindən və xarici mənşəli xərc amillərindən təsirlənir. Bu baxımdan inflyasiya təzyiqlərinin artdığı şəraitdə məcmu tələbin izafi genişlənməsinə yol verilməməsi və milli valyutada yığımların dəstəklənməsi üçün pul siyasətinin sərtləşdirilməsi, yəni uçot dərəcəsinin və faiz dəhlizinin aşağı həddinin dövri olaraq qaldırılmasına üstünlük verilib**.** Mərkəzi Bankın qərarları ilə faiz parametrləri mərhələli şəkildə artırılıb, uçot dərəcəsi 7.5%-dən 8.5%-ə, faiz dəhlizinin yuxarı həddi 9%-dən 9.5%-ə, aşağı həddi 6%-dən 7%-ə qaldırıb. Aktiv faiz artımı qərarı daha çox 2022-ci ilə və 2023-cü ilin ilin birinci yarısına təsadüf edir. Bu ilin noyabr ayından başlayaraq, illik inflyasiya səviyyəsinin azalması fonunda faiz dəhlizinin endirilməsi sahəsində addım atılmağa başlanıb.

Mərkəzi Bankın *Pul siyasəti İcmalı*nda 2023-cü ilin sentyabrında illik inflyasiyanın hədəf diapazonuna daxil olması qeyd edilir. Buna səbəb kimi qlobal iqtisadi proseslər və ölkədə həyata keçirilən anti-inflyasiya tədbirləri göstərilib. DSK-nın məlumatına əsasən, 2023-cü ilin yanvar-sentyabr aylarında orta illik inflyasiya 10.9% olub. Bu, 2021-ci ildən sonra ən aşağı göstəricidir.




***Diaqram 5. İstehlak qiymətləri indeksi, 2022-2023 (yanvar – sentyabr)***

Ümumi inflyasiya səviyyəsinin dinamikasına ərzaq məhsulları qiymətlərində dəyişim daha çox təsir göstərib. Sentyabrda illik ərzaq inflyasiyası 4.5%, orta illik ərzaq inflyasiyası isə 12.4% təşkil edib. Qeyri-ərzaq məhsulları üzrə qiymətlər sentyabrda illik 5.9%, orta illik 10.1% artıb. Xidmətlər son 1 ildə 5.4% bahalaşıb. Orta illik xidmət inflyasiyası 9.6% təşkil edib.




**Diaqram 5. İstehlak qiymətlərinin ərzaq, qeyri-ərzaq və xidmətlər üzrə dəyişməsi, faizlə**
***Mənbə: Mərkəzi Bank***

2023-cü ilin sentyabrında illik inflyasiya 2022-ci ilin analoji ayına nəzərən 5.1% təşkil edib və bununla da Mərkəzi Bankın müəyyənləşdirdiyi hədəf diapazonuna (4%±2%) daxil olub. Sentyabrda illik inflyasiyaya 2 faiz bəndi ərzaq, 1.4 faiz bəndi qeyri-ərzaq, 1.7 faiz bəndi isə xidmətlərin qiymət və tariflərinin dəyişimi töhfə verib. Elə bunun nəticəsi olaraq, Mərkəzi Bank sentyabrın 20-də keçirilmiş iclasında faiz dəhlizinin parametrlərinin dəyişməz saxlayıb. 2023-cü ilin oktyabr ayında orta illik inflyasiyanın bir qədər də aşağı düşməsi (10.2%-ə) səbəbindən noyabr ayında Mərkəzi Bank faiz dəhlizinin bütün parametrlərini 0.5% bəndi azaltmaq barədə qərar verilib. Mərkəzi Bankın proqnozuna görə, 2023-cü ilin sonuna və 2024-cü ilə illik inflyasiyanın hədəf daxilində (4%±2%) formalaşacaq. Belə ki, illik inflyasiyanın 2023-cü ilin sonuna 4.3%, 2024-cü ildə isə 5.3% və 2025-ci ildə 3.4% olacağı proqnozlaşdırılır.

2022-ci ildə ölkədə pul siyasətinin *Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası*nın Tədbirlər Planında nəzərdə tutulan "İnflyasiya hədəflənməsi rejiminə keçidin baza şərtlərinin formalaşdırılması" çərçivəsində həyata keçirilməyə başlanıb. Mərkəzi Bank hesab edir ki, ölkədə valyuta bazarında təklif kanallarının şaxələndirilməsi, maliyyə sektorunun dərinliyinin artırılması, nağd-kölgə iqtisadiyyatının məhdudlaşdırılması və makroiqtisadi koordinasiyanın effektivliyinin gücləndirilməsi inflyasiyanın hədəflənməsi rejiminə keçidə şərait yaradacaq. Faiz dəhlizinin inflyasiyaya ötürücülüyünün gücləndirilməsi məqsədilə Mərkəzi Bank

01.09.2022-ci il tarixindən pul siyasəti alətlərinin yeni konfiqurasiyada tətbiqinə başlayıb. Yeni konfiqurasiya *daimi imkan alətlərinin (bankların təşəbbüsü ilə keçirilən sterilizasiya və likvidliyin verilməsi əməliyyatları)* tətbiqini, *açıq bazar əməliyyatlarının* (*Mərkəzi Bankın təşəbbüsü ilə keçirilən sterilizasiya və likvidliyin verilməsi əməliyyatları*) isə çeşidinin genişləndirilməsini nəzərdə tutulur.

Daimi imkan alətləri olaraq sterilizasiya məqsədilə 1 günlük depozit əməliyyatlarının, likvidliyin verilməsi məqsədilə isə 1 günlük əks-repo əməliyyatlarının aparılması nəzərdə tutulur. Rəsmi məlumata görə, banklardan cəlb edilmiş 1 günlük depozitlərin qalıq dəyəri 2022-ci ilin sentyabr ayının sonuna 424.7 milyon AZN, oktyabr ayının sonuna 483.3 milyon AZN, noyabr ayının sonuna 486.8 milyon AZN, dekabr ayının sonuna isə 476.5 milyon manat olub. Depozit əməliyyatları 2023-cü ildə də davam edib və cəlb olunan vəsaitlərin həcmində getdikcə əhəmiyyətli artım müşahidə edilib. 2023-cü ilin sentyabr ayının sonuna cəlb edilmiş depozitlərin qalıq dəyəri 1.5 milyard AZN-ə, oktyabr ayının sonuna 1.9 milyard AZN-ə yüksəlib. Sentyabr-dekabr aylarında 1 günlük depozit əməliyyatlarının orta həcmi 464.3 milyon manat olub. 1 günlük depozitlərin illik faiz dərəcəsi isə faiz dəhlizinin aşağı həddi səviyyəsinə uyğun olaraq 4%-7.5% intervalında dəyişib. Faiz dəhlizinin aşağı həddinin artması 1 günlük depozitlərin banklar üçün cəlbediciliyini artırıb və nəticədə bankların prosesdə aktivliyi də artıb. Aktivliyin artmasında Mərkəzi Bankın 27 fevral 2023-cü il tarixindən 1 günlük depozitlərin cəlbi üzrə kvotanı artırması, 15 avqust tarixindən isə 35 milyon manatlıq kvotanın tamamilə ləğv etməsi da əhəmiyyətli rol oynayıb**.** Təsadüfi deyil ki, limitin ləğvi qərarından sonra 1 günlük depozitlərin həcmində kəskin artım müşahidə edilib. İyul ayının sonuna depozit qalığı 655 milyon manat olduğu halda, avqustun sonuna 940.4 milyon manata, sentyabrın sonuna 1.5 milyard manata, oktyabrın sonuna isə 1.9 milyard manata yüksəlib. Hazırda 1 günlük depozitlər banklardan illik 7%-lə cəlb edilir.

Mərkəzi Bank dövr ərzində likvidliyin verilməsi məqsədilə isə 1 günlük əks-repo əməliyyatların aparılması barədə məlumat açıqlamayıb.

Açıq bazar əməliyyatlarının təkmilləşdirilməsi çərçivəsində sterilizasiya məqsədilə zəruri halda 1, 3, 6 və 9 aylıq notlarla yanaşı 7 günlük repo və əks-repo hərraclarının keçirilməsi nəzərdə tutulub. Yeni əməliyyatlar çərçivəsində 2022-ci ildə sterilizasiya məqsədli 42.5 milyon manatlıq 7 günlük REPO əməliyyatı da baş tutub. 2023-cü ilin yanvar-sentyabr aylarında isə sterilizasiya məqsədli 302.5 milyon manat həcmində 7 günlük əməliyyatlar (REPO və 1 həftəlik not hərracları) həyata keçirilib.

1, 3, 6 və 9 aylıq notlarların yerləşdirilməsində aktivlik artıb. Mərkəzi Bank ümumilikdə 2022-ci ildə müxtəlif müddətli 90, 2023-cü ilin 9 ayında 102 not hərracı keçirib. Mərkəzi Bank yeni qaydanının qəbuluna qədər daha çox 28 günlük notlara üstünlük verirdisə, 2022-ci ilin sentyabr ayından başlayaraq 84, 168 və 252 günlük notların buraxılışını əvvəlki illərlə müqayisədə artırmağa başladı. Nəticədə 2021-ci ilin sonuna dövriyyədə olan notların həcmi 200 milyon manat olduğu halda, 2022-ci ilin sonuna 1,3 milyard manata, 2023-cü ilin sentyabr ayının sonuna isə 1.6 milyard manata yüksəlib. Artımın əsas səbəbi faiz dəhlizlərinin artırılması fonunda notların illik faiz dərəcələrinin artmasıdır. Eyni zamanda Mərkəzi Bankın notları üzrə investor bazasının genişləndirilməsi barədə müvafiq qərarın qəbulundan sonra banklarla yanaşı müvafiq meyarlara cavab verən qeyri-bank hüquqi şəxslərinin də hərraclarda iştirakına icazə verilib. Hazırda Mərkəzi

Bankın dövriyyədə olan notlarının 7%-dən çox hissəsi qeyri-bank hüquqi şəxslərinin mülkiyyətindədir.

Pul-kredit siyasətinin sərtləşdirilməsi çərçivəsində məcburi ehtiyat normalarının artırılması və differensiyalaşdırılması baş verib. Mərkəzi Bankın qərarı ilə 2022-ci il avqust ayının 1-dən etibarən həm hüquqi, həm də fiziki şəxslərdən cəlb edilmiş vəsaitlərə görə məcburi ehtiyat normaları milli valyuta üzrə 0.5%-dən 4%-ə, xarici valyuta üzrə 1%-dən 5%-ə yüksəldilib. 2023-cü ildə isə Mərkəzi Bank bank sistemində likvidliyin təmərküzləşməsinin məhdudlaşdırılması, habelə de-dollarlaşma meyillərinin stimullaşdırılması məcburi ehtiyat normalarına yeni differensiallaşma tətbiq etməyə başlayıb. *Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası*na 2022-ci ilin dekabr ayında edilmiş dəyişikliklər əsasında məcburi ehtiyat normaları bir qədər də artırılıb və bu artımın səviyyəsi cəlb edilmiş depozitlərin həcmi əsasında differensiallaşdırılıb. Yeni dəyişiklik 2 mərhələdə həyata keçirilib.

1-ci mərhələdə (01.01.2023 – 30.06.2023) hüquqi şəxslərdən milli valyutada cəlb edilmiş depozitlər üzrə 1 milyard manatadək olan depozitlər üçün məcburi ehtiyat norması 5%, 1 milyard manatdan çox olan depozitlər üçün 10% müəyyənləşdirilib. Xarici valyuta üzrə 750 milyon manatadək olan depozitlər üçün 6%, 750 milyon manatdan çox olan depozitlər üçün 12% müəyyənləşdirilib. Bu dövrdə fiziki şəxslərdən cəlb edilmiş depozitlərə görə məcburi ehtiyat normaları milli valyuta üzrə 4%-dən 5%-ə, xarici valyuta üzrə 5%-dən 6%-ə yüksəldilib.

2-ci mərhələdə (01.07.2023 tarixindən) fiziki şəxslərin depozitlərinə də milli və xarici valyutada hüquqi şəxslərdən cəlb edilmiş depozitlərə tətbiq edilən normalar tətbiq edilməyə başlanıb.

Bu dəyişikliklər nəticəsində məcburi ehtiyatların həcmi kəskin artıb. Mərkəzi Bankın məlumatına görə, 2022-ci ilin sonuna məcburi ehtiyatların həcmi 2021-ci illə müqayisədə 8 dəfə artaraq 1.4 milyard manata çatıb. 2023-cü ilin oktyabr ayının sonuna daha da artaraq 2.8 milyard manata yüksəlib.




**Diaqram 7. Müxbir hesabları və məcburi ehtiyatların illər üzrə dəyişməsi, milyon AZN**

***Mənbə: Mərkəzi Bank***

Mərkəzi Bankın 1 noyabr 2023-cü il tarixli qərarı ilə məcburi ehtiyat normalarına yeni diferensiallaşdırma meyarları daxil edilib və dekabr ayının 15-dən tətbiqinə başlanıb. Yeni məcburi ehtiyat normalarında əlaqəli depozitlərin və banka aidiyyəti olan şəxslərin depozitlərinin cəmi depozitlərdə payından asılı olaraq milli valyutada hüquqi şəxslərin depozitlərinə

diferensiallaşdırılmış mexanizm tətbiq edilib. Ümumilikdə, yeni pul siyasəti çərçivəsi işə düşəndən bəri (2022-ci il sentyabrın əvvəli) Mərkəzi Bankın sterilizasiya portfelinin həcmi (manatla məcburi ehtiyatlar və sterilizasiya yönlü daimi imkan aləti daxil olmaqla) 3.9 mlrd. manat artaraq 6.4 mlrd. manata çatıb.

Mərkəzi Bankın 15 fevral 2023-cü il tarixli qərarı ilə maliyyə sektorunun dayanıqlı maliyyəyə transformasiyası məqsədilə 2023-2026-cı illəri əhatə edən Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi təsdiq edilib. Yol xəritəsinin məqsədi maliyyə institutlarının iqlim dəyişmələri və digər ESİ (ekoloji, sosial və idarəetmə) amillərindən yaranan risklərə qarşı dayanıqlığının təmin edilməsi, habelə dayanıqlı iqtisadiyyata keçidlə bağlı yaranan fürsətlərin reallaşdırılmasıdır. Yol xəritəsi özündə 4 strateji prioriteti – 1) dayanıqlı maliyyə sahəsində potensialın formalaşdırılması, 2) dayanıqlı maliyyə axınları üçün ekosistemin formalaşdırılması, 3) İqlim dəyişmələri və ESİ faktorlarının risklərin idarə edilməsinə inteqrasiyası, 4) Maliyyə bazarlarında şəffaflığın və bazar intizamının təmin edilməsi kimi strateji prioritetləri cəmləyib.

2023-cü ilin may ayından etibarən Mərkəzi Bank gündəlik əsasda təminatsız bazarda banklar arasında milli valyutada əməliyyatların orta çəkili faiz dərəcəsini əks etdirən müxtəlif müddətli AZIR (Azerbaijan Interbank Rate) indekslərini açıqlamağa başlayıb. Bu indekslər Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilən *Təminatsız Banklararası Pul Bazarında Bençmark Dərəcəsi* (AZIR - Azerbaijan Interbank Rate) *üzrə İndekslərin Hesablanması və Açıqlanması Qaydaları* əsasında hesablanır. İndekslərin hesablanmasında Blumberq ticarət platformasında Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya bankları arasında milli valyutada bağlanan əqdlərdən istifadə edilir. Faiz indekslərilə yanaşı, Mərkəzi Bankın internet səhifəsində müvafiq tələblərə cavab verən əqdlərin məbləği və sayı da açıqlanacaqdır.

Mərkəzi Bank AZIR indekslərindən pul siyasətinin əməliyyat məqsədlərinə nail olmasının effektivliyinin ölçülməsi göstəricilərindən biri kimi istifadə edir. Bazar iştirakçıları maliyyə bazarında müxtəlif əqdlərin bağlanması zamanı AZIR indeksindən istinad faiz dərəcəsi kimi istifadə edə bilərlər.

*İnflyasiya səviyyəsinin cilovlanmasında milli valyutanın məzənnəsinin ABŞ dollarına nəzərən sabit saxlanması da rol oynayıb.* 2023-cü ilin yanvar-sentyabr aylarında manatın ABŞ dollarına qarşı orta günlük rəsmi məzənnəsi 1.7 manat təşkil etməklə dəyişməz qalıb. Manatın ABŞ dollarına nəzərən rəsmi məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə (Blumberq platformasında hərraclar və hərracdan kənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən edilib. Banklar xarici valyutanın alış-satış məzənnələrini rəsmi məzənnəyə yaxın müəyyənləşdiriblər. Belə ki, kommersiya banklarının orta hesabla günlük alış məzənnəsi 1 ABŞ dollarına nəzərən 1.6946 manat, satış məzənnəsi isə 1.7021 manat təşkil edib.

2023-cü ilin 9 ayında Mərkəzi Bank Dövlət Neft Fondunun valyuta satışlarının həyata keçirilməsi üzrə 71 valyuta hərracı keçirib. Bu müddətdə valyuta hərraclarının 99%-də təklif tələbi üstələyib və Mərkəzi Bankın valyuta bazarına müdaxiləsi alışyönlü olub.

*Azərbaycanın xarici ticarət, xüsusilə də idxal üzrə bəzi ticarət tərəfdaşlarının milli valyutalarının manata münasibətdə ucuzlaşması da idxal inflyasiyasını azaldan amillərdən olub.* Hesabat dövründə manatın məzənnəsi nominal olaraq Türkiyə lirəsinə, Qazaxıstan tengəsinə, Rusiya rubluna, Yaponiya yeninə, Çin yuanına qarşı bahalaşıb, avroya, İngiltərə funt sterlinqinə, İsveçrə frankına və Gürcüstan larisinə qarşı isə ucuzlaşıb. Ancaq Türkiyə lirəsinə, avroya, İran rialına, ABŞ

dollarına qarşı real effektiv məzənnəsi ucuzlaşıb. Manatın real effektiv məzənnəsi əsas ticarət tərəfdaşları arasında Rusiya rubluna, Çin yuanına, Yaponiya yenasına, Cənubi Koreya vonuna və İsrail şekelinə qarşı bahalaşıb. Ancaq bir sıra ticarət tərəfdaşının valyutasına qarşı, o cümlədən Türkiyə lirəsinə, avroya, ABŞ dollarına, İran rialına İngiltərə funtuna qarşı ucuzlaşıb. Ümumilikdə, ilin əvvəlindən manatın qeyri-neft ümumi ticarət çəkili nominal effektiv məzənnəsi 19.3%, real effektiv məzənnəsi isə 7.5% möhkəmlənib.

Azərbaycandakı inflyasiyanın tərəfdaş ölkələrdəki orta inflyasiyadan aşağı olması real effektiv məzənnəyə azaldıcı təsir göstərib. Eyni zamanda manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi inflyasiya idxalını məhdudlaşdıran başlıca amillərdən biri kimi çıxış edib.

*Mərkəzi Bankın banklardakı izafi likvidliyi azaltmağa yönəltmiş tədbirlərinin nəticəsi olaraq valyuta bazarının aktivlik nisbətən zəifləyib və valyuta əməliyyatlarının dövriyyəsində azalma baş verib.* 2023-cü ilin 9 ayı ərzində valyuta bazarının həm nağd, həm də nağdsız seqmentində əməliyyatların həcminin azalması müşahidə edilib. Cari ilin yanvar-sentyabr aylarında nağdsız valyuta bazarında aparılmış əməliyyatların həcmi 2022-ci ilin müvafiq dövrünə nəzərən 6% azalaraq 21 milyard ABŞ dolları ekvivalentində olub. Nağdsız valyuta əməliyyatlarının 79%-i ABŞ dollarında, 21%-i isə digər valyutalarda aparılıb. Valyuta əməliyyatlarının 20.1%-i banklararası valyuta bazarında (BVB), 79.9%-i isə bankdaxili valyuta bazarında (BDVB) həyata keçirilib. Hesabat dövründə BVB-də əməliyyatların həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 36.4% azalaraq 4.2 milyard ABŞ dollarına, BDVB-də əməliyyatların həcmi isə 7% azalaraq 15.7 milyard ABŞ dollarına düşüb.

Banklar tərəfindən nağd xarici valyutanın alqı-satqısı üzrə aparılmış əməliyyatların həcmi ötən ilin müvafiq dövrünə nəzərən 29.2% azalaraq 2.8 milyard ABŞ dolları ekvivalentində olub. Bunun 83.6%-ni ABŞ dolları ilə aparılmış əməliyyatlar təşkil edib. Son illər ərzində ilk dəfə 9 ay ərzində bankların xarici valyuta alışı satışını üstələyib.

Mərkəzi Bank ilk dəfə olaraq öz səlahiyyətlərinin bir qismini, o cümlədən nağd pulun idarə edilməsində effektivliyin və səmərəliliyin yüksəldilməsi məqsədilə bir sıra biznes proseslərinin banklara ötürülməsi siyasətinə başlayıb. Bu çərçivədə ilk dəfə olaraq öz müştərilərindən qəbul etdiyi pullarla yanaşı, digər banklardan və poçt rabitəsinin milli operatorundan alınmış kağız milli pul nişanlarının avtomatlaşdırılmış emal avadanlığında çeşidlənməsini həyata keçirərək birbaşa və ya digər kommersiya bankları vasitəsilə təkrar tədavülə buraxılması üçün *Kapital Bank ASC* və *ABB ASC* operator banklar müəyyən edilib. Mərkəzi Bank tərəfindən investisiya pul nişanlarının satışını təmin etmək üçün *Bank of Baku ASC* və *TuranBank ASC* satış agentləri müəyyən edilib və investisiya pul nişanlarının birbaşa əhaliyə və banklara satışı və geri alışı hüququnu qazanıblar.

*Nağd pul kütləsinin payında azalma müşahidə edilib.* 2023-cü ilin 9 ayında dövriyyədə olan nağd pulun həcmi 19.8% artaraq 14.7 milyard manata çatıb. Bu, Azərbaycanın müstəqillik dövründə ən yüksək həddir. İlin əvvəlindən manatla geniş pul kütləsi (M2) 12.2% artaraq sentyabr ayının sonuna 33.2 milyard manata çatıb. Nağd pul kütləsinin artımına rəğmən, manatla pul kütləsində (M2) payı 45%-dən 44.4%-ə düşüb. Banklardakı və banklardan kənar nağd pul kütləsinin artım səviyyəsi də fərqli olub. Dövr ərzində bank xaricindəki nağd pul kütləsi 12.4% artdığı halda, bankdakı pullar 5.2% artıb.

Pul kütləsinin artımını Mərkəzi Bank 1 günlük depozit cəlbi, not buraxılışı və məcburi ehtiyat normalarının artırılması yolu ilə tənzimləyib. 2023-cü il sentyabr ayının sonuna 33.2 milyard

manatlıq pul kütləsinə qarşı cəlb edilmiş 1 günlük depozitin həcmi 1.5 milyard manat, buraxılmış notların həcmi 1.6 milyard manat, bankların Mərkəzi bankda saxladıqları məcburi ehtiyatların həcmi isə 2.6 milyard manat olub.

Mərkəzi Bankın son iki ildə bankları dəstəkləmək üçün yeni alətlər tətbiq etsə də, onlara qarşı tələbləri sərtləşdirən addımlar da atıb. Buna *Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası*na edilmiş dəyişiklikləri, *Banklarda korporativ idarəetmə Standartları*nı, *Banklarda kredit risklərinin idarə edilməsi Qaydası*nı, *Banklarda likvidlik riskinin idarə edilməsi Qaydası*nı göstərmək olar.

Mərkəzi Bankın qərarı ilə 01.12.2023-cü il tarixində qüvvəyə minmiş *Banklarda likvidlik riskinin idarə edilməsi Qaydası*na əsasən, cəlb olunmuş vəsait mənbələrinin konsentrasiyasına dair yeni monitorinq aləti (Herfindal-Hirşman aləti) təqdim edilib, ani likvidlik əmsalı normativinin tərkibi təkmilləşdirilib. Həmçinin, bankın normal və stress şəraitində ödəniş və hesablaşmalar üzrə yaranan öhdəlikləri vaxtında icra etmək üçün gündəlik likvidliyin idarə olunmasına dair prinsiplər və tələblər müəyyən olunub. 30.11.2022-ci il tarixində qüvvəyə minmiş *Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə banklar arasında xarici valyutanın alqı-satqısı Qaydası* Mərkəzi Bank ilə banklar arasında xarici valyutanın alqı-satqısı əməliyyatlarının aparılması qaydalarını tənzimləyir. Qaydada Mərkəzi Bankın daxili valyuta bazarında istifadə edə biləcəyi alətlər siyahısında hazırda istifadə olunan alətlərlə yanaşı, valyuta bazarında zərurət yaranacağı hallarda aparıla bilən digər potensial alətlər, o cümlədən forvard, svop, opsion əməliyyatları da yer alıb.

Ümumilikdə götürdükdə 2022-ci ilin sentyabr və 2023-cü ilin sentyabr ayları aralığında bank sektorunda baş vermiş prosesləri aşağıdakı kimi sistemləşdirmək olar:

*Kredit təşkilatların, o cümlədən bankların azalması tendensiyası davam edib.* 2022-ci ilin sentyabr 2023-cü ilin sentyabr ayların aralığında 3 kommersiya bank və 2 bank olmayan kredit təşkilatı bazarı tərk edib. Mərkəzi Bankın 11 oktyabr 2022-ci il tarixli Qərarı ilə Pakistan Milli Bankının Bakı Filialına verilmiş 30 iyun 2005-ci il tarixli 248 nömrəli bank lisenziyası ləğv edilib. Mərkəzi Bankının 16 may 2023-cü il tarixli Qərarı ilə Günay Bank ASC-nin, 18 oktyabr 2023-cü il tarixli Qərarı ilə Muğan Bank ASC-nin lisenziyası ləğv edilib. Pakistan Milli Bankının özü tərəfindən lisenziyanın ləğvi ilə bağlı müraciət olduğu halda, digər iki bankın bağlanmasına səbəb məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olması, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olması, habelə bankların cari fəaliyyətlərinin etibarlı və prudensial qaydada həyata keçirməmələri olub.

Məlumat üçün bildirək ki, hər 3 bankın ümumilikdə bank sektorunda bazar payı 2% civarında olub. Günay Bank ASC-nin ölkənin bank sisteminin aktivlərində xüsusi çəkisi 0,6%, kredit portfelində 1%, sektorun öhdəliklərində isə cəmi 0,5% təşkil edib. Muğan Bank ASC-nin bank sisteminin aktivlərində xüsusi çəkisi 1,4%, kredit portfelində 2%, sektorun öhdəliklərində isə cəmi 1,3% təşkil edib.

Hər 3 bankın bağlanmasından sonra ölkədə fəaliyyət göstərən bankların sayı 23-ə düşüb. Hazırda ölkədə fəaliyyət göstərən bankların 2-si dövlət, 21-i özəl banklardır. Bu bankların 9-u xarici kapitallıdır. 2023-cü il noyabr ayının 1-i tarixinə bank filiallarının sayı 471, şöbələrin sayı 86, işçilərin sayı isə 23292 nəfər olub.

Mərkəzi Bankın 31 may 2023-cü il tarixli Qərarı ilə 2 BOKT - *Gold Finance Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyətinin* və *Viza Kredit Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyətinin* lisenziyası ləğv edilib. Səbəb olaraq qeyd edilir ki, adı çəkilən təşkilatlar tərəfindən müştərilərə verilmiş kreditlər tam həcmdə "ümidsiz aktiv" təsnifat kateqoriyasında olub və kapital tələbləri pozulub. Bu təşkilatlar tərəfindən son bir neçə il ərzində kreditləşmə fəaliyyəti ümumiyyətlə həyata keçirilməyib. 2023-cü ilin sentyabr ayının sonuna BOKT-ların sayı əvvəli ilin analoji dövrü ilə müqayisədə azalaraq 96-dan 92-yə düşüb. Hazırda 92 BOKT-un 283 filialında ümumilikdə 3169 nəfər işçi çalışır.

*Milli valyutanın sabitliyi və manat depozitlərinin cəlbi üçün təklif edilən illik faiz dərəcələrinin yüksək olması fonunda bank sektorunda dollarlaşma səviyyəsi aşağı düşüb.* Ölkə üzrə depozit qoyuluşunda de-dollarlaşma tendensiyası müşahidə edilib. Hesabat dövründə ümumi depozitlərin artımı 0.8% olduğu halda milli valyutada yatırılmış depozitlərin artımı 14.3% olub. Bu müddətdə xarici valyutada depozit qoyuluşunun həcmi 31.2% azalıb. Nəticədə xarici valyutada yerləşdirilmiş depozitlərin ümumi depozitlərdə payı 49.1%-dən 40.1%-ə düşüb.

De-dollarlaşma depozitlərin bütün növlərində müşahidə edilib. Əhali əmanətlərində xarici valtyutaların payı 1 il ərzində 39.2%-dən 35.1%-ə, maliyyə təşkilatlarının depozitlərində 60.5%-dən 53.8%-ə, qeyri-maliyyə təşkilatlarının depozitlərində isə 53.2%-dən 41.9%-ə düşüb.

2023-cü ilin sentyabr ayının sonuna kredit qoyuluşunun həcmi əvvəlki ilin analoji dövrü ilə müqayisədə 16.8% artaraq 23 milyard manatı ötüb. Bununla da, kredit təşkilatlarının kredit qoyuluşunun həcmi tarixi rekord həddinə çatıb. Bu müddətdə milli valyutada verilmiş kreditlərin həcmi 21.5%, xarici valyutada verilmiş kreditlərin həcmi isə 0.04% artıb. Nəticədə kredit qoyuluşunda dollarlaşma səviyyəsi 21.9%-dən 18.7%-ə düşüb. Hesabat dövründə bankların ümumi öhdəliklərində xarici valyutaların payı 45%-dən 36.1%-ə düşüb.

*Əhalidən fərqli olaraq hüquqi şəxslərin depozit qoyuluşunda azalıb.* Ölkə üzrə ümumi depozit qoyuluşunda artım əhalinin əmanətləri hesabına baş verib. 2023-cü ilin 9 ayında əhalinin əmanət qoyuluşu əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14.8% artdığı halda, maliyyə təşkilatlarının depozitləri 3.4%, qeyri-maliyyə təşkilatlarının depozitləri 8.7% azalıb. Maliyyə və qeyri-maliyyə təşkilatlarında azalmanın səbəbi xarici valyuta üzrə depozitlərin kəskin azalması olub. Azalma müvafiq olaraq 23.8% və 24.6% olub.

*Bank sektorunda təmərküzləşmə prosesində səngimə müşahidə edilib.* Azərbaycan Banklar Assosiasiyasının bankların maliyyə vəziyyətinə dair statistik məlumatlarının analizi göstərir ki, 2022 (sentyabr) – 2023-cü (sentyabr) illərdə aktivlərinin həcminə görə 5 bankın bazar payı azalaraq 73.1%-dən 72.4%-ə düşüb. Bu müddətdə depozit portfelində də azalma müşahidə edilib və 5 bankın bazar payı 78.4%-dən 76.7%-ə düşüb. Təmərküzləşmənin güclənməsi yeganə olaraq kredit bazarında müşahidə edilib. 5 bankın kredit portfelində bazar payı 62.2%-dən 63.1%-ə yüksəlib.

## 3. Xarici iqtisadi əlaqələrin analizi: əsas meyllər

2023-cü ilin 9 ayı ərzində ölkənin xarici iqtisadi əlaqələrinin dinamikasında özünü xeyli dərəcədə fərqli meyllər müşahidə edilib. Belə ki, bir tərəfdən beynəlxalq bazarlarda enerji daşıyıcılarının qiymətinin ucuzlaşması səbəbindən ölkəyə neft-qaz ixracından daxilolmalarda ciddi azalma baş verib. Digər tərəfdən isə ölkədən ən müxtəlif kanallarla xalis kapital çıxışının azalması tədiyə balansının müsbət saldosunu xeyli artırıb.

### Xarici ticarət əlaqələrinin təhlili[6]

Əvvəlki ilin eyni dövrünə nisbətən 2023-cü iln 9 ayı ərzində ixracda 10,3% və ya 3,032 mlrd. dollar azalma qeydə alınıb və ümumi ixrac həcmi 26,489 mlrd. dollar təşkil edib.  İdxal isə əksinə, 22,5% yaxud 2,321 mlrd. dollar artaraq 12,614 mlrd. dollara yüksəlib. İdxal və ixracın həcmində baş verən dəyişiklik nəticəsində ticarət balasnının müsbət saldosu 19,228 mlrd. dollardan 13,875 dollara enib.




İxracdakı azalma neft-qaz sektoru ilə bağlı olub. Belə ki, təhlil aparılan dövrdə Neft-qaz sektorunun ixracatı 12,2% və ya 3,350 mlrd. dollar azalıb. Lakin qeyri-neft qaz sektorunun ixracı 15% yaxud 317,6 mln. dollar artıb və ümumi məbləği 2,434 mlrd. dollara çatıb. Bu sektorun ixracda payı 9,2% təşkil edib (əvvəlki dövrdə 7,2%).

İdxalın strukturunda baş verən dəyişikliyə gəldikdə, dövlət sektorunun idxalı 30% (522 mln. dollar) artıb və ümumi idxalın 18%-ni təşkil edib (əvvəlki il bu göstərici 20,6% olmuşdu). Özəl sektorun idxalı 17,5% (1,325 mlrd. dollar), fiziki şəxslərin idxalı 48,3% (474,2 mln. dollar) genişlənib.

[6] 2022 və 2023-cü illərin 9 aylıq xarici ticarət göstəriciləri Dövlət Statistika Komitəsinin aylıq bülletenlərindən (https://www.stat.gov.az/source/trade/) və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin aylıq ixrac icmallarından (https://ereforms.gov.az/az/ixrac-icmali) götürülüb.




Qeyri-neft sektorunun ixracında coğrafi konsentrasiya xeyli yüksəlib. Belə ki, 2022-ci ilin 9 ayında qeyri-neft ixracatında 5 ölkənin payı 80,4% (bu ölkələrə düşən ixrac həcmi 1,459 mlrd. dollar) təşkil edirdisə, cari ilin eyni dövrü üzrə coğrafi konsentrasiya əmsalı 87,5%-ə (ixrac həcmi 1,850 mlrd. dollara) yüksəlmişdir. İlk 5-liyə daxil olan ölkələrin siyahısında 4 ölkə dəyişməyib (Rusiya, Türkiyə, İsveçrə və Gürcüstan), amma ABŞ-ı Qazaxıstan əvəzləyib. Qeyri-neft ixracatında ümumi artım da məhz bu ölkələr hesabına təmin edilib. Belə ki, ilk 5 ölkə üzrə ixracın həcmi 391,6 mln. dollar (27%) artdığı halda, yerdə qalan ölkələr üzrə həmin göstərici 74 mln. dollar (11,2%) azalıb. Öz növbəsində, qeyri-neft ixracatının həcmi Rusiyaya 185 mln. dollar (30%) artaraq 787 mln. dollara, Türkiyəyə 120 mln. dollar (23,5%) artaraq 631 mln. dollara çatıb.




İxracatçı subyektlərin sayı baxımından təmərküzləşməyə baxıldıqda, 10 aparıcı dövlət müəssisəsinin qeyri-neft ixracında payı 41,4%-dən 42,6%-ə yüksəlmişdi. Mütləq ifadədə bu şirkətlərin ixrac həcmi 871 mln. dollardan 1,038 mlrd. dollara çatmışdır (artım 167 mln. dollar). Amma 10 aparıcı özəl şirkətin qeyri-neft ixracatında payı 18,6%-dən (ixrac məbləği 394 mln. dollar)

16.8%-ə (ixrac məbləği 410,2 mln. dollar) ensə də, mütləq rəqəmlə 16,2 mln. dollar artıb. Nəticə etibarı ilə təhlil aparılan dövrdə 20 aparıcı ixracatçı subyektin qeyri-neft ixracatında payı, demək olar ki, sabit qalmışdır (ümumi qeyri-nrft ixracatının 60%-i). Məhsul çeşidi baxımından qeyri-neft ixracının diversifikasiyasına gəldikdə, 2023-cü ilin 9 ayında 10 aparıcı əmtəənin payı 44,6% və ya 1,085 mlrd. dollar olub (əvvəlki ilin eyni dövründə 47,4% və ya 1,004 mlrd. dollar təşkil etmişdi).

## Tədiyə balansı göstəricilərinin analizi

2023-cü ilin 6 ayı ərzində neft-qaz gəlirlərinin azalması cari hesab üzrə ölkəyə daxilolmaların həcminin də kəskin azalması ilə müşahidə olunub. Hesab çərçivəsində ölkəyə daxilomların həcmi ötən ilin eyni dövrünə nisbətən 15,8% və ya 3,7 mlrd. dollar azalaraq 19,8 mlrd. dollara enib.

Cari hesab üzrə daxilolmaların 71,6%-i və ya 14,2 mlrd. dolları neft-qaz, 28,4%-i yaxud 5,6 mlrd. dolları isə qeyri-neft sektorunun payına düşüb. Ötən ilin ilk yarım ili ilə müqayisədə neft-qaz sektoru üzrə daxilolmalar 22% və ya 4 mlrd. dollar azalıb, qeyri-neft sektorunun gəlirləri isə 288,3 mln. dollar (5,4%) artıb.

Cari hesab üzrə qeyri-rezidentlərə ödəmələr 14,7 mlrd. dollar təşkil edib ki, bu əvvəlki ilin eyri dövrünə nisbətən təxminən 1,5 mlrd. dollar (11%) çoxdur. Bu ödəmələrin 6 mlrd. dolları (əvvəlki dövrə nisbətən 336 mln. dollar və ya 5,9% çox) neft-qaz sektorunun, 8,7 mlrd. dolları (1,1 mlrd. dollar yaxud 15% çox) çoxdur.




Təhlil aparılan dövrdə tədiyə balansının profisiti 5,1 mlrd. dollardan bir qədər çox olub ki, bu da əvvəlki ilə nisbətən 2 dəfə azdır. Cari hesab üzrə ölkəyə daxilolmaların 76,5%-i (15,2 mlrd. dollar) əmtəə ixracatının, 14,5%-i (2,9 mlrd. dollar) xidmət ixracının, yerdə qalan 9%-i (1,7 mlrd. dollar) isə faktor (əmək haqqı, mənfəət, faiz) gəlirləri və cari transfert ödəmələri (ilk növbədə pul baratları) hesabına olmuşdur.

Xidmətlərin ixracından daxilolamaların təxminən yarısı (1,4 mlrd. dolları) nəqliyyat, 20%-i (589 mln. dolları) turizm, 25,5%-i (740 mln. dolları) işgüzar xidmətlər sayəsində yaranıb. İlin ilk yarısının yekunlarına görə, xidmətlər balansında 1,1 mlrd. dollar defisit yaranıb (ötən illə müqayisədə 200 mln. dollar az). Bu müddətdə ölkədən müxtəlif ölkələrin qeyri-rezidentlərə fərqli xidmətlərə görə təxminən 4 mlrd. dollar ödənib. Həmin ödəmələrin 1.6 mlrd. dolları işgüzar, 835 mln. dolları nəqliyyat, 697 mln. dolları tikinti, 488 mln. dolları turizm xidmətlərinə ödənilib.

2023-cü ilin yekunlarına görə, cari hesabın əsas bölməsi olan ilkin gəlirlərdə 1,8 mlrd. dollar kəsir qeydə alınıb (837 mln. dollar daxilolma, 2.6 mlrd. dollar ödəmə). Ödəmələrin əsas hissəsi (2,3 mlrd. dollar) neft-qaz sektoruna qoyulan investisiyalara görə gəlirlərin repatriasiyası ilə bağlı olub.

Təhlil aparılan dövrdə ölkəyə təkrar gəlirlər bölməsi çərçivəsində 937 mln. dollar daxail olub ki, bu məbləğin 39 mln. dolları humanitar və texniki yardımlar, 890 mln. dolları isə fiziki şəxslərə göndərilən pul baratları formasına olub. Yeri gəlmişkən, ev təsərrüfatlarına xaricdən göndərilən yardımlar 2 dəfəyədək azalıb – ötən ilin 6 ayında bu məbləğ 1.6 mlrd. dollardan bir qədər çox olmuşdu.

İlk yarım ilin nəticələrinə görə, maliyyə hesabında 509 mln. dollar profisit qeydə alınıb (ötən ilin eyni dövründə 5,3 mlrd. dollar defisit yaranmışdı). Qeyd olunan məbləğdə profisitin yaranması mənbələri aşağıdakılardır:

- Birbaşa investisiya kanalları ilə ölkədən 566 mln. dollar xalis kapital çıxışı baş verib (ötən il 2,1 mlrd. dollar xalis kapital girişi qeydə alınmışdı). Mərkəzi Bankın hesabatından aydın olur ki, təhlil aparılan dövrdə ölkəyə birbaşa sərmayə formasında 3,2 mlrd. dollar və ya ötən ilə nisbətən 241 mln. dollar (7,5%) az vəsait cəlb edilmişdir. Bu məbləğin təxminən 2,3 mlrd. dolları neft-qaz sektoru ilə bağlı olub. Xarici neft-qaz şirkətləri birbaşa investisiyalar çərçivəsində ölkədən 3,6 mlrd. kapital repatriasiyası həyata keçiriblər (ötən ilin yarım ilində isə 5,6 mlrd. dollar). Göstərilən dövrdə Azərbaycana daxil olan birbaşa sərmayələrin təxminən 70%-i 5 ölkənin (Böyük Britaniya, Türkiyə, Kipr, Rusiya və İran) payına düşüb. Öz növbəsində, həmin müddətdə Azərbaycandan xaricə birbaşa sərmayə formasında 620 mln. dollar yatırılıb ki, bu əvvəlki ilə nisbətən 100 mln. dollar yaxud 19% çoxdur. Azərbaycandan kənar çıxan ən yüksək məbləğ Birləşmiş Ərəb Əmirliyinə (132,6 mln. dollar), Avstraliyaya (75,4 mln. dollar), Türkiyəyə (60 mln. dollar) və ABŞ-a (32 mln. dollar) yönəlib;
- Portfel invesitsiyalar hesabına ölkədən 1,083,5 mlrd. dollar xalis kapital çıxışı qeydə alınıb (ötən il isə xalis kaptal çıxışı 127 mln. dollar olmuşdu). Bu bölmə çərçivəsində ölkədən xalis kapital çıxışı əsasən neft-qaz sektoru hesabına baş verib. Ümumilkdə bu sektorun portfel investisiya formasında ölkədən xalis kapital çıxışı 1,5 mlrd. dollar təşkil edib;
- Digər investisiyalar çərçivəsində ölkəyə 1,707 mlrd. dollar xalis kapital girişi baş verib (ötən il 2,8 mlrd. dollar xalis kapital çıxışı baş vermişdi). Bu bölmə çərçivəsindən rezidentlər və qeyri-rezidentlər arasında maliyyə axınları 3 kanalla baş verir: depozitlər və nağd valyuta axınları, kredit və ssudaların alınması və geri ödənməsi, ticarət kreditləri üzrə daxilolmalar və ödəmələr. Təhlil aparılan dövrdə depozit və nağd valyuta formasında ölkəyə 1,3 mlrd. dollar xalis kapital girişi, kreditlər və ssudalar formasında 626 mln. dollar xalis kapital giririşi, ticarət kreditləri formasında isə 977,5 mln. dollar xalis kapital girişi qeydə alınmışdır;

- Neft bonusu formasında ölkəyə 450,2 mln. dollar daxil olub. Razılaşmaya əsasən, 2018-2025-ci illərdə Azərbayacana ümumilikdə 3,6 mlrd. dollar  məbləğində neft bonusu ödəniləcək.

*Xalis xəta və buraxılışlar* bölməsi çərçivəsində ölkədən 411,4 mln. dollar xalis kapital çıxışı baş verib (ötən ilin eyni dövründə bu göstərici 399,2 mln. dollar olmuşdu). Beynəlxalq metodologiyaya əsasən, bu maddə müxtəlif səbəblərdən dəqiq uçota alına bilməyən malyyə axınları hesabına ya ölkəyə kapital girişini, ya da kapital çıxışını əks etdirir.

İlin ilk yarısının yekunlarına görə, tədiyə balansının ümumu saldosunda 5,2 mlrd. dollar profisit yaranıb və bu ölkənin ehtiyat aktivlərinin artım miqyasını əks etdirir. 2022-ci ilin yanvar-iyun aylarında bu göstərici 4,6 mlrd. dollar olmuşdur.